<u>Qeyri-rəsmi tərcümə</u>

**Texas Ştatı**

**15R331 saylı Qətnamə**

26 fevral 2015-ci il tarixində Azərbaycanda Xocalı qətliamının 23-cü ildönümünün qeyd olunması bütün dünya əhalisinə bu faciəvi hadisəni yad etmək imkanını yaradır.

Bu qətliam 1988-ci ildən 1994-cü ilə kimi Azərbaycanın Dağlıq Qarabağ regionunda baş verən müharibə çərçivəsində törədilmişdir; 1992-ci il 25 və 26 fevral tarixlərində Ermənistanın silahlı qüvvələri Rusiyanın hərbi birləşmələrinin müşayiəti ilə Xocalı rayonunu işğal etdilər;

İşğal zamanı ərazidən xilas olmağa çalışan Azərbaycanlıların geniş kütləsi erməni və rus əsgərlərinin atəşinə məruz qalmış; nəticədə amansız Dağlıq Qarabağ münaqişəsinin ən iri miqyaslı qətliamı törədilmişdir; qiymətləndirmələr arasında fərqlər olduğuna baxmayaraq, əksəriyyəti uşaq və qadın olan ən azı 160 nəfərin və ən çoxu 1000-ə kimi insanın qətlə yetirildiyi bildirilir;

Əsas xəbər agentlikləri bu dəhşətli hadisə barədə məlumat vermiş və “Human Rights Watch / Helsinki”, “Memorial Human Rights Center” kimi qruplar bu hadisəni müharibə zonalarında mülki əhali ilə rəftara aid adət hüququnun pozulması kimi pisləmişdir; bir çox milli və ştat hakimiyyətləri bu zorakılığa diqqət ayırmışdır; 2013-cü ildə Texas Nümayəndələr Palatasının 83-cü çağırışı 565 saylı qətnamə qəbul edərək qətliamın 21-ci ildönümünü qeyd etmişdir.

Bu dəhşətli faciənin ildönümü qurbanları və onların ailə üzvlərini xatırlamağa fürsət verir; bundan başqa, bu ildönüm müharibə zamanı baş verə biləcək fəlakətlərin və gələcəkdə zorakı münaqişələrin qarşısının alınması vasitəsi kimi dialoq və tolerantlığın təşviq edilməsinə zərurətin xatirəsidir.

Bununla Azərbaycanda Xocalı qətliamının 23-cü ildönümünün qeyd edilməsi qərara alınır.

Gene Wu

Ştatın Nümayəndəsi

137 saylı dairə